

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 170 (21.831)

*9 sentyabr 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də ATƏT Parlament Assambleyasının sədri xanım Kristin Muttoneni qəbul edib.

Azərbaycanda son vaxtlarda irəli sürülən təşəbbüslər və həyata keçirilən layihələr barədə danışan Prezident İlham Əliyev bunun, eyni zamanda, beynəlxalq əməkdaşlığa da töhfə verdiyini qeyd edib. Dövlətimizin başçısı ölkəmizin artıq multikulturalizm və mədəniyyətlərarası dialoq sahəsində bir mərkəzə çevrildiyini vurğulayaraq Azərbaycanda vaxtaşırı olaraq müxtəlif beynəlxalq təşkilatların iştirakı ilə böyük tədbirlərin keçirildiyini bildirib.

Azərbaycan Prezidenti ATƏT Parlament Assambleyasının sədri xanım Kristin Muttonenin ölkəmizə səfərinin uğurlu və səmərəli olacağına əminliyini ifadə edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlar prosesinin indiki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Sentyabrın 8-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində "Təhsil" Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



# Naxçıvanda 2 meqavatlıq yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib





Muxtar respublikanın energetika sektorunda davamlı inkişaf təmin edilib. Bu tədbirlər içərisində alternativ və bərpa olunan enerji mənbələrindən istifadə və bu sahədə müasir infrastrukturun yaradılması mühüm yer tutur. Hazırda muxtar respublikada günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 60 faizindən çoxunu təşkil edir.

Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq sentyabrın 8-də muxtar respublikada 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat vermişdir ki, 2016-cı il noyabrın 11-də İsveçrənin "Pure Energy Development" SARL Şirkəti ilə müqavilə bağlanılmış və Naxçıvan Günəş Elektrik Stansiyasının ikinci ərazisində 1,3 meqavat, beşinci ərazisində isə 0,7 meqavat gücündə 7 min 700 ədəd şüşə-şüşə tipli günəş panelləri quraşdırılmışdır. Tikinti işləri aparılarkən stansiya ərazisində müvafiq inventarlar, transformatorlar, kommutasiya aparatları, 2 transformator yarımstansiyası da quraşdırılmış və digər tədbirlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov enerji təminatının Naxçıvan Muxtar Respublikası üçün vacib sahələrdən biri olduğunu diqqətə çatdırmış, yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, stansiyanın qurulmasında əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Enerji təhlükəsizliyinin təmin olunması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə o ölkələrdə mümkün olur ki, həmin ölkələrdə sabitlik və inkişaf olsun. Bu gün ölkəmizdə bu tədbirlər uğurla həyata keçirilir. Naxçıvanda Günəş Elektrik Stansiyası qurularkən ərazi və şirkət düzgün seçilmişdir. Belə ki, Günəş Elektrik Stansiyasının yerləşdiyi ərazi əkinəyararsız torpaq sahəsidir. Şirkət isə günəş elektrik stansiyalarının qurulmasında ən müasir texnologiyaya əsaslanan şüşə-şüşə tipli panellərdən istifadə edir ki, bu da əraziyə qənaət olunmasına və stansiyanın yüksək iş əmsalı ilə fəaliyyət göstərməsinə imkan verir.

Ali Məclisin Sədri demişdir: 2015-ci il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Günəş Elektrik Stansiyası bu günə qədər uğurla fəaliyyət göstərmişdir. Stansiyada 2016-cı ildə 30 milyon kilovat-saata, 2017-ci ilin ötən dövründə isə 22 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunmuşdur. Yeni stansiyanın istifadəyə verilməsi ilə Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində istehsal ediləcək elektrik enerjisinin həcmi artırılaraq 33 milyon kilovat-saata çatdırılmışdır. Bu da muxtar respublikada elektrik enerjisinə olan tələbatın 8 faizinin Günəş Elektrik Stansiyası hesabına ödənilməsinə imkan verəcəkdir.





Ali Məclisin Sədri demişdir: Günəş Elektrik Stansiyası Naxçıvan Muxtar Respublikasının sərvətidir. Eyni zamanda bu gün istifadəyə verilən 2 meqavatlıq Günəş Elektrik Stansiyası muxtar respublikanın həyatında əlamətdar hadisədir. Çünki harada enerji varsa, orada həyat var, iqtisadi inkişaf var. Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ucuz başa gəlir. Bu da muxtar respublikanın energetika sisteminə öz töhfəsini verəcək, Dövlət Energetika Xidmətinin gəlirləri artacaq, gələcəkdə yeni yarımstansiyalar qurulacaqdır. Ona görə də stansiya düzgün istismar olunmalı, tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır.

Ali Məclisin Sədri muxtar respublika əhalisini və energetikləri 2 meqavatlıq yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə bir daha təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri idarəetmə otağında stansiyanı işə salmışdır.

Günəş Elektrik Stansiyası ilə tanışlıq zamanı bildirildi ki, stansiyada istehsal olunan elektrik enerjisinin şəbəkəyə ötürülməsi və istehlakçılara itkisiz çatdırılması üçün bütün imkanlar yaradılıb. Panellərlə transformator yarımstansiyaları arasında kabel xətləri çəkilib, stansiya ərazisi çəpərlənib və digər təhlükəsizlik tədbirləri görülüb.

Ali Məclisin Sədri "Pure Energy Development" SARL Şirkətinin icraçı direktoru Mişel Kaleramiyə və şirkətin kollektivinə təşəkkür etmiş, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin bundan sonra davam etdiriləcəyini bildirmiş, energetika sahəsində kadr hazırlığı ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilir



***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən yığıncağı nazir Rövşən Məmmədov açıb.***

Bildirilib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə icrasına nazirlikdə xüsusi diqqət yetirilir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi və onun tabeliyində olan müəssisələr üzrə payız-qış mövsümünə hazırlıqla bağlı qarşıda heç bir problem yoxdur. Nazirliyin anbarında hər zaman qəza halları üçün müxtəlif diametrli kabellərin hər birindən 2 kilometr olmaqla ehtiyat saxlanılır. Xüsusilə əsas magistral xətlərdə istifadə olunan optik kabellər, müxtəlif optik çeviricilər, muftalar və qəza zamanı istifadə olunan digər zəruri avadanlıqların daim anbarda olmasına xüsusi diqqət yetirilir. Mövsümdən asılı olmayaraq, istismar edilən bütün elektron qurğuların ehtiyat hissələrinin və bloklarının olması nəzarətdə saxlanılır. Belə ki, ehtiyat mal-material tükənmədən əlavə hissələrin alınması təmin edilir.

Vurğulanıb ki, əsas diqqət yönəldilən işlərdən biri də avadanlıqların qorunmasıdır. Bu məqsədlə bütün imkanlardan səmərəli istifadə olunur. Belə ki, artıq bir neçə ildir, birbaşa ümumi elektrik şəbəkəsindən qidalanan avadanlıqlar gərginliyin ani artıb-azalmasına qarşı həssas ayırıcı gərginlik releləri ilə təchiz edilib. Telefon kabellərinin abunəçilərə paylanma nöqtələrinə ildırım və elektrikdən qoruma sistemi olan abunəçi qutuları və paylama şkafları qoyulur. Eyni zamanda muxtar respublikada həyata keçirilən geniş abadlıq və quruculuq işlərinin tərkib hissəsi olan kənd mərkəzlərinin tikilməsi və avtomat telefon stansiyalarının stabil elektrik və istilik sistemi ilə təmin edilmiş müasir binalara köçürülməsi sayəsində son illər avadanlıqların xüsusi hallar istisna olmaqla sıradan çıxmasının qarşısı alınıb. Hazırda muxtar respublika üzrə mövcud 183 ATS-dən 160-ı, 172 poçt bölməsindən 153-ü yeni binalarda yerləşir. İstilik sistemi olmayan iş yerləri isə qışda standart elektrik qızdırıcıları, yaxud sobalarla qızdırılır. Bütün generator və akkumulyatorlara mərkəzləşmiş qaydada xidmət olunur. Noyabr ayının 15-dək enerjini az saxlayan istismar müddəti bitmiş akkumulyatorlar yeniləri ilə əvəz ediləcəkdir.

Tədbirdə rayon (şəhər) rabitə idarələri rəislərinin çıxışları olub.

* * *

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.***

Yığıncağı cəmiyyətin direktoru Mahir Əliyev açaraq məruzə edib. Bildirilib ki, payız-qış mövsümünə hazırlıqla bağlı bir sıra tədbirlər həyata keçirilir. Hazırda Culfa stansiyasında müasir tələblərə cavab verən yeni istismar vaqon deposunun tikintisi davam etdirilir. Culfa bərpa qatarında bütün texnikalara baxış keçirilib, onların saz vəziyyətdə saxlanılması və qorunması üçün müvafiq tədbirlər görülüb.

Təhlükəsizlik komandalarının gözətçi məntəqələrində təmir işləri aparılır və yataq dəstlərinin təmizliyi yoxlanılır. Dəmiryol təsərrüfatında çalışan bütün aidiyyəti işçilərin xüsusi geyim, ayaqqabı və fərdi mühafizə vasitələri ilə təmin olunmaları istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Sahələrdə istifadə edilən və standartlara cavab verməyən bütün işçi alətləri yenilənir.

İşə yeni qəbul edilən işçilərə əməyin mühafizəsi qaydalarının öyrədilməsi, biliklərin yoxlanılmasının təşkilinə dair standartlar sisteminin tələblərinə uyğun təlimatlar keçirilir. Sınaq müddəti qurtaran işçilərin bilikləri yoxlanıldıqdan sonra onlar sərbəst işə buraxılırlar. İşçilərin təhlükəsizlik texnikası qaydalarının tələblərinə düzgün riayət etmələri məqsədilə onlarla müvafiq qaydada texniki məşğələlər keçirilir.

Qeyd edilib ki, Naxçıvan Yanacaq Anbarında, Şahtaxtı və Şərur stansiyalarında yağ və su nasoslarında, elektrik xətlərində, qurğu və avadanlıqlarda profilaktik təmir işləri aparılır.

Culfa yanğın qatarında yanğın avtomobilinin və aqreqatların texniki vəziyyətinə baxış keçirilərək müvafiq tədbirlər görülür.

Əsaslı təmirə ehtiyacı olan bütün inzibati və yardımçı binaların qış mövsümündə normal qızdırılması üçün onların qapı-pəncərələrinin və bacalarının kipliyi bir daha yoxlanılır.

İdarə və strukturlarda istismarda olan bütün maşın-mexanizmlərin və özühərəkətedən texnoloji nəqliyyat vasitələrinin qış mövsümünə hazırlığı təmin edilir.

Sonra məruzə ətrafında çıxışlar olub.

Yığıncağa “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyev yekun vurub.

* * *



*Naxçıvan Müəllimlər İnstitutunda 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə institutun rektoru, AMEA-nın müxbir üzvü Oruc Həsənli açaraq bildirib ki, muxtar respublikamızda həyata keçirilən tikinti-quruculuq işləri təhsil sahəsini də əhatə edib. Hər il onlarla təhsil ocağı üçün yeni binalar tikilir və ya mövcud obyektlər əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilir. Naxçıvan Müəllimlər İnstitutuna da bu qayğıdan böyük pay düşüb. Belə ki, institutun binasına yeni korpus əlavə olunub. Hazırda binada əsaslı yenidənqurma işləri aparılır.

Qeyd olunub ki, muxtar respublikada fasiləsiz elektrik enerjisinin və təbii qazın verilməsi, içməli suya olan tələbatın ödənilməsi, istilik sistemlərinin qurulması digər müəssisələr kimi, ali təhsil ocaqlarını da əhatə edib. Hər il payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi mövsüm ərzində təhsil müəssisələrində tədrisin davamlılığını təmin edən əsas amillərdəndir.

Təsərrüfat işləri üzrə prorektor Rasim Babayev adıçəkilən müşavirədən sonra Naxçıvan Müəllimlər İnstitutunun hazırda müvəqqəti olaraq yerləşdiyi binada payız-qış mövsümünə hazırlıq işlərinə start verildiyini diqqətə çatdırıb, istilik və elektrik sistemlərinin, su borularının sazlığının təmin olunması istiqamətində görülən işlərdən danışıb.

Sonra institutun Təbiət və incəsənət fakültəsinin dekanı, dosent Rövşən Vəliyevin və Pedaqoji fakültənin dekanı, dosent Azad Novruzovun çıxışları dinlənilib.

Tədbirə Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli yekun vurub.

* * *

***Dünən Naxçıvan Musiqi Kollecində də payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.***

Yığıncaqda Naxçıvan Musiqi Kollecinin direktoru Günay Əliyeva çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində avqustun 26-da keçirilmiş 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirədə verilən tapşırıqların icrası istiqamətində Naxçıvan Musiqi Kollecində də bir sıra işlər görülüb. Son illərdə kollecin infrastrukturunun yenilənməsi, kollec binasının yenidən təmir olunaraq istifadəyə verilməsi payız-qış mövsümünün uğurla başa çatacağına əminlik yaradır.

Vurğulanıb ki, kollecdəki elektrik naqilləri, istilik radiatorları, məktəbin dam örtüyü, qapı-pəncərələrin sazlığı, havalandırma sistemi yenidən yoxlanılaraq mövcud olan çatışmazlıqlar və nasazlıqlar aradan qaldırılıb. Eyni zamanda cavabdeh işçilərlə maarifləndirici söhbətlər aparılıb və məşğələlər təşkil edilib.



Kollecin direktoru bildirib ki, işə yalnız məsuliyyətlə yanaşmaq, mövcud imkanlardan düzgün istifadə etməklə payız-qış mövsümünü lazımınca başa vurmaq olar. Müşavirədə qarşıya qoyulan vəzifələri vaxtında yerinə yetirmək və məsələyə ciddi nəzarət etməklə tədrisin fasiləsizliyinə və keyfiyyətinə nail ola bilərik.

Sonda diqqətə çatdırılıb ki, kollektiv bu sahədə işini günün tələbləri səviyyəsində qurmaqla, tədris prosesini lazımınca təşkil edəcəkdir.

Məruzə ətrafında Naxçıvan Musiqi Kollecinin Kitabxana-informasiya təminatı ixtisasının fənn birləşmə komissiyasının sədri Akif Bağırov, kollecin direktor müavini Vüsal Camalov və başqaları çıxış ediblər.

***Sentyabrın 8-də Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbiri giriş sözü ilə nazir Hafiz Yaqubov açıb.***

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə digər sahələrdə olduğu kimi, ekologiya sahəsində də görüləcək işlər və qarşıda duran vəzifələr barədə danışılıb. Nazirliyə meşə fondu ərazilərində qurumuş ağacların təmizlənməsi və hərbi hissələrə verilməsi, yeni yaşıllıqların salınması, bitki və heyvanat aləminin qış aylarında qorunması üçün vaxtında müvafiq işlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Bu tapşırıqların vaxtında icra edilməsi üçün nazirlikdə iş planı təsdiq olunub. Plana əsasən aidiyyəti şöbələr, tabeli idarə və müəssisələrin rəhbərləri nəzərdə tutulmuş tədbirlərin vaxtında icra olunmasını təmin etməlidirlər.



Vurğulanıb ki, nazirliyin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsi, Meşə Təsərrüfatı İdarəsi, Meşəsalma və Meşə Tingçiliyi Müəssisəsi tərəfindən 2017-ci ilin payız mövsümündə həyata keçiriləcək əkin və əkin-bərpa, yaşıllaşdırma və yeni meyvə bağlarının salınması işlərinin mütəşəkkil təşkili üçün sentyabr və oktyabr aylarında əkin aparılacaq ərazilərin planları hazırlanmalı, ting ehtiyatı yaradılmalı, torpaq hazırlığı işləri aparılmalı, texnika, maşın və mexanizmlər saz vəziyyətə gətirilməlidir. Əkin işlərinin keyfiyyətinin yüksəldilməsi üçün rayonlaşdırma işlərinin aparılması, torpaqların münbitliyinin artırılması tədbirlərinə diqqətdə saxlanılmalıdır. Xüsusilə dağlıq və meşə fondu ərazilərində toxumla əkin işlərinin aparılmasına üstünlük verilməlidir. Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi, Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi, xüsusi mühafizə statuslu idarələr və balıq mühafizə stansiyası tərəfindən brakonyerliyə, qanunsuz ov edilməsinə qarşı ciddi mübarizə aparılmalı, yoxlama-reydlərin, maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilməlidir. Bitki və heyvanat aləminin qorunması və artırılması tədbirlərinə nəzarət gücləndirilməlidir.

Qeyd olunub ki, qış mövsümündə ərazilərin qarla örtülməsi heyvanat aləminin qida ehtiyatının azalmasına səbəb olur. Ona görə də hər il xüsusi mühafizə olunan təbiət ərazilərində və digər ərazilərdə biotexniki tədbirlər həyata keçirilir, həmin sahələrə qida məhsulları – buğda, arpa, qaba yem, tərəvəz məhsulları, daşduz və digər qidalar paylanır. Bu ehtiyatların bir qismi nazirliyin təsərrüfat ərazilərindən toplanır və aidiyyəti idarələr tərəfindən tədarük edilir. Nazirliyin Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi və aidiyyəti xüsusi mühafizə statuslu idarələr vaxtında qida-yem ehtiyatının yaradılması üçün tədbirlər görməli, daşduz ehtiyatı yaradılmalıdır. Bu tədbirlərin yeni salınmış yaşıllıq zolaqlarında da keçirilməsi diqqətdə saxlanılmalıdır. Yay-qış otlaq sahələrində ekoloji monitorinqlər aparılmalı, ətraf mühitin mühafizəsində qanunvericiliyin tələblərinə uyğun olaraq tədbirlər icra edilməli, xüsusilə qış otlaq sahələrində təsərrüfat fəaliyyətinin tənzimlənməsi üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

Diqqətə çatdırılıb ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeli müəssisələrinin rəhbərləri aid inzibati binalarda, meteoroloji stansiyalarda, gözətçi məntəqələrində qışa hazırlıqla bağlı zəruri tədbirlər həyata keçirməlidirlər. Xüsusilə elektrik enerjisi və təbii qazdan istifadə edən müəssisələr israfçılığa yol verməməli, təhlükəsizlik tədbirlərinə diqqət göstərilməli, mühafizə işçilərinin isti geyimlərlə və digər zəruri avadanlıqlarla təmin edilməsi üçün tədbirlər görülməlidir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, müzakirələr aparılıb.

Tədbirə Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov yekun vurub.

* * *



Naxçıvan Tibb Kollecində də payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova açaraq bildirib ki, 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə müvafiq qurumlara tapşırıqlar verilib. Müşavirədə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində Naxçıvan Tibb Kollecində də bir sıra işlər görülüb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada təhsilin inkişafı, təhsil müəssisələrində fasiləsiz tədris prosesinin təmin olunması üçün yüksək şərait yaradılıb. Belə ki, Naxçıvan Tibb Kolleci elektrik enerjisi, istilik və içməli su ilə davamlı təmin olunur. İstilik sistemi mərkəzləşdirilmiş qazanxana tərəfindən həyata keçirilir.

Vurğulanıb ki, kollecdə elektrik enerjisinin verilməsində fasiləsizliyi təmin etmək üçün avadanlıqlar və xətlərin təhlükəsizliyi yoxlanılıb, rabitə və kompüter qurğularına texniki baxış keçirilib, təhlükəsizlik tədbirlərinə riayət olunmasına nəzarət daha da gücləndirilib. Tədris korpusu, sosial xidmət sahəsi, zirzəmi yoxlanılıb.

Qeyd olunub ki, elektrik enerjisi və içməli sudan qənaətlə istifadə edilməsi, israfçılığa yol verilməməsi, istehlak olunan suyun və enerjinin dəyərinin vaxtında ödənilməsi diqqət mərkəzində saxlanılır.

Vurğulanıb ki, 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı həyata keçirilən tədbirlər kollecin fasiləsiz fəaliyyətinə şərait yaradacaq.

Sonra məruzə ətrafında çıxışlar olub.

Yığıncağa Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova yekun vurub.

**Xəbərlər şöbəsi**

## Təhsil işçilərinin 2016-2017-ci tədris ilinin yekunları və qarşıda duran vəzifələrlə bağlı sentyabr konfransı keçirilib

***Konfransda təhsil naziri Məmməd Qəribov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı davamlı xarakter alıb. Bunun nəticəsidir ki, 1996-cı ildən ötən dövr ərzində 200-dən çox təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Məktəb tikintisi cari ildə də davam etdirilir. Belə ki, I yarımil ərzində 2716 şagird yerlik beş tam orta məktəb binası istifadəyə verilib.***



Bu gün ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhədən və 4242 dəst kompüterdən istifadə olunur. Kompüterlərin 3336-sı internet şəbəkəsinə qoşulub.

Muxtar respublikamızda ümumtəhsil məktəblərinin kitabxana şəbəkələrinin genişləndirilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi və şagirdlərin dərsliklərlə təminatı da diqqət mərkəzində saxlanılıb, 2017-ci ilin avqust ayında ümumtəhsil məktəblərinə 133 min 729 nüsxə dərslik və 6 min 271 nüsxə tədris vəsaiti, 627 min 643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə verilib.

Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı” təsdiq edilib. Sərəncama uyğun olaraq bütün təhsil müəssisələrində həmin kitablardan ibarət sərgilərin hazırlanması və təhsil işçiləri, eyni zamanda tələbə, şagird və müdavimlər tərəfindən bu kitabların mütaliə və müzakirəsinin keçirilməsi təmin ediləcək.

Vurğulanıb ki, muxtar respublikamızda bütün qəbildən olan uşaqların təhsili diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın tələblərinə uyğun olaraq 2016-2017-ci tədris ilində ümumtəhsil məktəblərinə 942 sağlamlıq imkanı məhdud uşaq cəlb edilib. Onların 88-i I siniflərdə təhsil alıb. 86 sağlamlıq imkanları məhdud uşaq məktəbdənkənar tərbiyə müəssisələrinə, 24 şagird isə hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən distant təhsilə cəlb olunub.

Muxtar respublikada yaradılmış şərait nəticəsində qabaqcıl təhsil mühiti formalaşıb, şagirdlərin təhsilə marağı artıb, ali və orta ixtisas məktəblərinə həm sənədvermə, həm də qəbulun nəticələri ilbəil yaxşılaşır. Belə ki, bu il məktəbi bitirən 2758 məzundan 2185-i ali, 141-i orta ixtisas məktəblərinə qəbul üçün sənəd verib.

Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə bu il ali hərbi məktəblərə və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2399 nəfər olub. Cari ildə muxtar respublikanın ümumtəhsil məktəblərinin ümumi orta təhsil bazasından 1182, tam orta təhsil bazası üzrə 141 olmaqla, 1323 məzun orta ixtisas məktəblərinə qəbul üçün sənəd verib.

Ali təhsil müəssisələrinə qəbul üçün keçirilən imtahanlarda iştirak edən 2017-ci ilin məzunlarından 1524 nəfəri ali təhsil müəssisələrinə, Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 211-i ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olunub.

Nazir işdə buraxılan nöqsanlardan da danışıb. Bildirib ki, muxtar respublikamızın pedaqoji kollektivləri içərisində 2016-2017-ci tədris ili ərzində təhsil prosesinə ciddi yanaşmayan, yüksək şagird və müəllim kontingenti olmasına baxmayaraq, ali və orta ixtisas məktəblərinə qəbul zamanı çox zəif nəticə göstərən ümumtəhsil məktəblərimiz də olub. Belə ki, muxtar respublikanın 14 tam orta məktəbindən sənəd verənlərin 30-40 faizi, 13 tam orta məktəbindən isə 40-50 faizi tələbə adını qazanıb. Bununla yanaşı, Şərur rayonu üzrə 3, Babək rayonu üzrə 1, Ordubad rayonu üzrə 1, Culfa rayonu üzrə 1, Şahbuz rayonu üzrə 1, Kəngərli rayonu üzrə 1 olmaqla, muxtar respublika üzrə 8 tam orta məktəbdən ali və orta ixtisas məktəblərinə qəbul cəmi 20-30 faiz təşkil edib.

Vurğulanıb ki, il ərzində aparılan yoxlama-reydlər onu göstərir ki, ümumtəhsil məktəblərimizdə istər pedaqoji işçilərin, istərsə də şagirdlərin məktəbə davamiyyətində hələ də nöqsanlar mövcuddur. Bundan başqa, dərsdənkənar məşğələlər üçün ayrılmış saatların keçirilməsində təlimati tələblər bəzi hallarda gözlənilmir, bunun nəticəsində də şagirdlərin dərsdən sonrakı asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün lazımi şərait yaranmır. Yeni təlim metodlarından istifadə edərək təlim-tərbiyə aparmaları üçün məktəb rəhbərləri tərəfindən fənn müəllimlərinin işinə düzgün nəzarət olunmur, məktəb sənədlərinin aparılmasında ciddi nöqsanlara yol verilir. Bir sıra məktəb rəhbərləri tərəfindən lazım olan miqdarda dərs dinləmələri aparılmır və yaxud da nəticələri düzgün təhlil olunmur.

Məruzə ətrafında müzakirələrdə Babək və Ordubad Rayon Təhsil şöbələrinin müdirləri Ovni Muradov və Samir Zeynalovun, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanovun, Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin və Naxçıvan Qızlar Liseyinin direktorları Namiq Məmmədov və Aidə Allahverdiyevanın çıxışları dinlənilib.

Sonra konfransın qətnaməsi oxunub.

**✍ Muxtar MƏMMƏDOV**

# Oxucu məktubları

*“Şərq qapısı” qəzetinə yazırlar*

## Naxçıvan gözəlliklər diyarıdır

***Hörmətli redaksiya!***

***Mən naxçıvanlı ilə ailə qurmuşam, Moskva şəhərində yaşayırıq. İlk dəfə Naxçıvanda 1996-cı ildə olmuşdum. Bu il Naxçıvana gələndə gördüklərim məni heyrətə gətirdi. Bir zamanlar saatlarla işığa, suya, qaza həsrət qalan muxtar respublika indi özü enerji ixrac edir.***



Paytaxt Naxçıvan şəhərindən muxtar respublikanın bütün rayonlarına gedən nəqliyyat yollarının kənarlarında əkilmiş meyvə və meşə ağacları bu yollardan keçənlərin zövqünü oxşayır. Öyrəndim ki, hər həftənin şənbə və bazar günləri iməciliklər təşkil olunur, ağaclara qulluq edilir.

Yay aylarında muxtar respublikada havalar çox isti keçir. Ona görə də bu mövsümdə ağacların qulluğa daha çox ehtiyacı var. Böyük ərazinin necə suvarıldığı ilə maraqlandım. Öyrəndim ki, Naxçıvanda müasir suvarma təcrübəsi tətbiq olunur, ağaclar damcı üsulu ilə suvarılır. Naxçıvan başdan-başa yaşıllıqlara bürünüb.

Onu da öyrəndim ki, həmin bağlardan yığılan meyvələr Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrə göndərilir. Bu, diqqətəlayiq işlərdən biridir. Muxtar respublikadakı müəllimlərin, tələbələrin, şagirdlərin, avtobus və taksi sürücülərinin vahid geyiminin olması diqqətimdən yayınmadı.

Qədim diyara gələrkən Əshabi-Kəhf ziyarətgahını görməyi də çox arzulayırdım. Şükür, istəyimə çatdım. Bura müqəddəs məkandır. Əshabi-Kəhfin əvvəlki illərdəki vəziyyətini də xatırlayıram. Maşın yolu ilə ora getmək çox çətin idi. Ziyarətgahda natəmizlik hökm sürürdü. Hələ kabab çəkənləri görəndə düşünürdüm ki, sanki ziyarətgaha yox, başqa yerə gəlmişik. Bu dəfə isə fərqli bir mənzərənin şahidi oldum.

Duzdağ tamam başqa bir əfsanə, başdan-başa möcüzədir. Hər yerdən, o cümlədən Rusiyadan bura təbii yolla müalicə olunmaq üçün onlarla insan gəlir, sağlamlıqlarına məhz Naxçıvanda qovuşduqlarını deyirlər.

Naxçıvanı özümə ikinci vətən hesab edirəm. Naxçıvan torpağı dünyaya göz açdığım torpaq qədər mənə əzizdir. Buranın insanları çox mədəni, gülərüz və qonaqpərvərdirlər. İnanıram ki, növbəti gəlişimdə bu gözəl diyarın daha da çiçəkləndiyini görəcəyəm.

**Lida RƏHİMOVA**
***Rusiya Federasiyasının Moskva şəhər sakini***

*Minnətdarlıq*

## Sahibkar qadınların fəaliyyətinə hərtərəfli şərait yaradılıb

*Hörmətli redaksiya!* Məni sizə məktub yazmağa sövq edən son illərdə muxtar respublikamızda özəl sektorun inkişaf etdirilməsinə yaradılan şəraitdir. Bu gün sahibkarlar dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Bu qayğıdan qadınlarımıza da pay düşüb. İndi Naxçıvanda çoxsaylı qadın sahibkar vardır.

Sahibkarı olduğum “Zümrüd” Kiçik Müəssisəsi fəaliyyətə başladığı vaxt Naxçıvanda vəziyyət elə də ürəkaçan deyildi. Həmin vaxtlar cəmiyyətimizdə qadının ictimai fəallığı o qədər də yaxşı qarşılanmırdı. 1998-ci ildə ulu öndərimiz Heydər Əliyevin “Azərbaycanda qadınların rolunun artırılması haqqında” Sərəncam imzalaması mənim də sahibkar kimi fəaliyyət göstərməyimə stimul oldu.

2011-ci il sentyabrın 9-da gündəlik istehsal gücü 150 dəst kostyum olan müəssisənin yeni binası və kostyum istehsalı sahəsi istifadəyə veriləndə, müəssisənin açılışında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyələri müəssisənin daha səmərəli fəaliyyətinə təkan verdi.

Sahibkarlığın inkişafına göstərilən qayğıdan ruhlanaraq 2013-cü ildə köynək istehsalı sahəmizi yaratmaq qərarına gəldik. Digər sahibkarlar kimi, bizim müəssisə də dövlət qayğısından bəhrələndi. Bu məqsədlə biznes-plan hazırlayıb muxtar respublikanın Sahibkarlığa Kömək Fonduna təqdim etdik. Layihənin reallaşması üçün fonddan 165 min manat güzəştli kredit ayrıldı. Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi 39 ünvanında yerləşən binada yeni istehsal sahəsi yaratmaq



üçün təmir-bərpa və yenidənqurma işləri apardıq. Ümumi sahəsi 654 kvadratmetr olan sexdə istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati heyət üçün ayrı-ayrı iş otaqları yaratdıq. Yeni istehsal sahəsində Yaponiya və Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb. Türkiyənin “Talay makina” şirkəti ilə müqavilə bağlamışıq. Artıq gündəlik istehsal gücü min ədəd köynək olan yeni istehsal sahəsi yaratmışıq. Bu, daxili bazarın tələbatını tamamilə ödəmə gücünə malikdir. Müəssisədə 15 nəfər daimi işlə təmin edilib.

Muxtar respublikada daxili bazarı keyfiyyətli yerli məhsullarla təmin etmək üçün biz sahibkar qadınlara göstərilən qayğıya əməli işlə cavab verməyə çalışacağıq. Yaradılan şəraitə görə dövlətimizə minnətdaram.

**Mehrəngiz ƏKBƏROVA**
***“Zümrüd” Kiçik Müəssisəsinin direktoru***

## Təhsilə qayğı öz bəhrəsini verir

***Hörmətli redaksiya!*** Bu məktubu sizə Şərur rayonunun Çərçiboğan kəndindən yazıram. Mənim 76 yaşım var. Bu günlərdə sevincimin həddi-hüdudu yoxdu. İki nəvəm – Turxan və Elvin Ramazanovlar ali məktəbə qəbul olublar. Elvin Şərur rayonu üzrə ən yüksək nəticəni göstərib, 682 bal toplayıb. O, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olub. Turxan isə Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi fakültəsində ali təhsil alacaq.

Bu gün muxtar respublikamızda iqtisadiyyatın, səhiyyənin, mədəniyyətin sürətli inkişafı ilə bərabər, təhsilimizdə də davamlı inkişaf özünü göstərməkdədir. Bunu universitetlərə yüksək balla daxil olan abituriyentlərin sayı da təsdiqləyir. Əlbəttə ki, bu inkişaf təsadüfi deyil, bir çox səbəbləri var. Müasir tələblərə cavab verən yeni məktəb binalarının tikilməsi, təhsil ocaqlarının maddi-texniki bazalarının gücləndirilməsi, müəllim əməyinin qiymətləndirilməsi, yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan tələbələrin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mükafatlandırılması şagirdləri və müəllimləri daha yaxşı çalışmağa, bu qayğıya və diqqətə layiq olmağa sövq edir. Bu isə muxtar respublikada təhsilə göstərilən böyük qayğı kimi gənclərin də məsuliyyət hissini artırır, onlar ölkəmizin inkişafı naminə təhsildə böyük uğurlar qazanmağa çalışırlar.

Təhsilə göstərilən qayğını görəndə qürur hissi keçirirəm. Bizim vaxtımızda belə müasir məktəblər, belə gözəl təhsil yox idi. Vaxtilə övladlarımızı da oxutmaq üçün çox çətinliklər çəkirdik. Bu gün uşaqlarımızın yaxşı təhsil alması üçün dövlətimiz hər cür şərait yaradıb. Onların üzərinə düşən vəzifə isə bu gözəl şəraitdən istifadə edib oxumaq, xalqına, ailəsinə layiqli bir vətəndaş kimi yetişməkdir.

Mən Çərçiboğan kənd tam orta məktəbində təhsil alıb, tələbə adını qazanan bütün gənclərin valideynləri adından təhsilə göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

**Fatma RAMAZANOVA**
***Şərur rayonunun Çərçiboğan kənd sakini***

***Keçmişimizi və bu günümüzü özündə əks etdirən belə muzeylər gələcək nəslin tərbiyəsində, tarixi keçmişə ehtiram, vətənə məhəbbət ruhunda formalaşmasında böyük əhəmiyyət daşıyan mədəniyyət müəssisələridir. Naxçıvan şəhərində fəaliyyət göstərən Xatirə Muzeyinin müasir memarlıq üslubunda inşa olunmuş binası, səliqə-sahmanı bu ünvana üz tutan hər kəsin diqqətini ilk anda cəlb edir.***

## Hamımızın üz tutduğu ünvan: Xatirə Muzeyi





1997-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə Şəhidlər Muzeyi yaradılıb. Muzey 500 eksponatla fəaliyyətə başlayıb. 8 avqust 2000-ci il tarixdə muzeyin adı dəyişilərək Xatirə Muzeyi adlandırılıb. Hazırda burada 2000-dən artıq eksponat var. Onlardan 337-si ekspozisiyada sərgilənir. Muzeyin ekspozisiyası xronoloji ardıcıllıqla qurulub. Azərbaycanda baş verən qırğınlara və törədilən etnik qarşıdurmalara ilk hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. 1918-ci il 31 mart, 1990-cı il 20 yanvar, 1992-ci il 26 fevral faciələri ilə bağlı dahi rəhbərin imzaladığı sərəncamların surəti muzeydə özünə yer alıb.

Ekspozisiyada 1918-1920-ci illərdə erməni daşnakları tərəfindən Azərbaycan xalqının başına gətirilən faciələri əks etdirən material, fotoşəkil və sənədləri görmək olar. Həmin illərdə erməni qəsbkarları hücum edərək yaşayış məntəqələrimizi soyur, talayır, əhalini isə xüsusi amansızlıqla qətlə yetirirdilər. Ermənilərin yürütdüyü "yandırılmış torpaq" siyasəti nəticəsində o dövrdə təkcə Bakı şəhərində 70 min insan qətlə yetirilmişdi. Andranikin başçılıq etdiyi erməni quldur dəstələri Naxçıvan mahalına da hücum etmişdilər. Yaycı kəndi tamamilə yandırılmış, əhaliyə heç bir çərçivəyə sığmayan şəkildə divan tutulmuşdu. Naxçıvanda 73 min 727 nəfər qətlə yetirilmişdi.

Türk ordusunun 1918-1920-ci illərdə Naxçıvanda ermənilərə qarşı döyüşməsi ilə bağlı Xatirə Muzeyində yer alan məlumatlar da bizim bir millət, iki dövlət olduğumuzun əyani sübutudur.

Muzeyin guşələrində xalqımızın zəfər dastanının, Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin tarixini əks etdirən nümunələr də var. Bu doğma torpağın parçalanmasının şahidi olan Türkmənçay, Gülüstan müqavilələrinin surətləri muzeydə yer almaqdadır. Doğma elimiz Naxçıvanın taleyini həll edən 1921-ci il 16 mart tarixli Moskva, 1921-ci il 13 oktyabr tarixli Qars müqavilələrinin də surətləri muzeyin ekspozisiyasındadır.

Birinci və İkinci Dünya müharibələrində Azərbaycanda baş verən hadisələr haqqında məlumat və materiallar xalqımızın cəsarətini və dözümlülüyünü özündə əks etdirir. İkinci Dünya müharibəsi illərində azərbaycanlıların həm ön cəbhədə, həm də arxa cəbhədə hünər və dözümü bütün dünyaya məlumdur. Bu müharibədə 700 mindən artıq azərbaycanlı döyüşüb. 300 min azərbaycanlı həlak olub, 2000 döyüşçü medal və ordenlərlə təltif edilib. 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Üç Sovet İttifaqı Qəhrəmanı Naxçıvan torpağının yetirməsidir.

Muzeydə Qəzənfər Əkbərov, Abbas Quliyev və Nəcəfqulu Rəfiyevin yurdundan minlərlə kilometr uzaqda göstərdikləri igidlikləri özündə əks etdirən sənədlər, ordenlər, fotoşəkil və şəxsi əşyalar var. 1948-1953-cü illərdə erməni daşnaklarının xalqımızın başına gətirdiyi müsibət tarixin təkrarı idi. Erməni qəsbkarlarının Azərbaycanın kəndlərində, rayonlarında törətdiyi qırğınların sayı-hesabı yox idi.

Muzeyin guşələrini seyr edərkən diqqətimi çəkən bir fotoşəkil məni həm təsirləndirdi, həm də qürurlandırdı. Bu, 1990-cı ildə Sədərəkdə könüllülərdən ibarət özünümüdafiə dəstəsinin fotoşəkli idi. Həmin könüllülər əsarətdən yeni qurtarmış, özünə gəlməyə hələ vaxt tapmadan mənfur qonşusunun hücumuna məruz qalmış xalqın övladları idi. Bu, sadə, cansız bir fotoşəkil yox, xalqın qeyrətinin, Vətən sevgisinin rəmzidir.

Həmin vaxtdan başlayan elan olunmamış müharibə hələ də davam edir. Torpağımız uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalanlar xalqımızın övladlarıdır.

Ümummilli liderimiz Heydər Əliyev, Onun siyasi xəttinin layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyev vətən oğullarının göstərdikləri cəsarəti yüksək qiymətləndiriblər. Cəbhədəki şücaətinə görə 213 döyüşçü Milli Qəhrəman adına layiq görülüb. Bunlardan 8-i həmyerlimizdir. Onlar haqqında muzeydə ətraflı məlumat almaq olar.

Gələcək nəslin azad, suveren yaşaması üçün onlar öz canlarından keçdilər. Xalqımız bu qəhrəman övladlarını unutmur, unutmayacaq da. Bu, hamımızın vətəndaşlıq borcu olmalıdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə diqqətəlayiq işlər görülməsi hamımızı sevindirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixdə imzaladığı "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncama əsasən muxtar respublikanın bütün idarə, müəssisə və təşkilatlarının kollektivləri muzeylərdə olurlar.

*Xatirə Muzeyində açıq dərslər keçilir, muxtar respublikanın orta ümumtəhsil məktəbləri ilə əlaqə saxlanılır. Məqsəd isə ondan ibarətdir ki, bugünkü gənclik xalqımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik məqamına ucalanların şərəfli ömür yollarını öyrənsinlər, Vətənə, dövlətə, müstəqilliyimizə sadiq ruhda böyüsünlər.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 22 sentyabr 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, 125 nömrəli binada yerləşən 21 nömrəli mənzil | Naxçıvan şəhəri, "İstiqlal" küçəsi | 49 400 | 2 470 |
| 2. | 2700 kvadratmetr torpaq sahəsində yerləşən 3 otaqlı, 128,4 kvadratmetr ümumi, 68,0 kvadratmetr yaşayış sahəsindən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Üstüpü kəndi | 33 000 | 1 650 |
| 3. | 0,2659 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 98,28 kvadratmetr yaşayış, 22,13 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Üstüpü kəndi | 31 000 | 1 550 |
| 4. | 0,2346 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 128,80 kvadratmetr yaşayış, 106,40 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Qaraqala kəndi | 21 000 | 1 050 |
| 5. | 0,0395 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 64,65 kvadratmetr yaşayış, 37,36 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Üstüpü kəndi | 16 000 | 800 |
| 6. | 0,2578 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 70,00 kvadratmetr yaşayış, 17,60 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Qaraqala kəndi | 14 000 | 700 |
| 7. | 0,1279 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,94 kvadratmetr yaşayış, 50,16 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Qarahəsənli kəndi | 4 800 | 240 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 20 sentyabr 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 22 sentyabr 2017-ci il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

## "Azərbaycan musiqi tarixindən" mövzusunda tədbir keçirilib

***Dünən Sədərək rayon 1 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan musiqi tarixindən" mövzusunda tədbir keçirilib.***

Nazirliyin baş məsləhətçisi Kənan Tağızadə çıxış edərək bu mövzuda aparılan mühazirələrin məqsəd və əhəmiyyətindən danışıb.

Sonra Sədərək Rayon Uşaq Musiqi Məktəbinin direktoru Vəfa Həsənova "Azərbaycan musiqi tarixindən" mövzusunda mühazirə ilə çıxış edib. Qeyd olunub ki, Azərbaycan musiqi mədəniyyətinin tarixi çox qədimdir. Qəmiqaya və Qobustan qayaüstü rəsmləri, arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi-mədəniyyət nümunələri musiqi mədəniyyətimiz haqqında dəyərli məlumatlar verir. Xalqımızın şifahi xalq ədəbiyyatında, Nizami, Xaqani, Füzuli, Nəsimi və başqalarının əsərlərində də orta əsrlərin musiqi həyatı haqqında çox zəngin məlumatlar vardır.

Bildirilib ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda da musiqi mədəniyyətimizin inkişafı istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Hər il musiqi məktəbləri üçün yeni binaların inşa olunması, konsert salonlarının təmir edilməsi, musiqi sahəsində çoxsaylı müsabiqə və festivalların keçirilməsi bunun əyani ifadəsidir.

Mühazirə başa çatdıqdan sonra tədbir iştirakçıları "Azərbaycan musiqisi" sənədli filminə baxıblar.

**Əli RZAYEV**

## Şəhər birinciliyinin qalibləri müəyyənləşib



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmə və gənclər arasında MMA qarışıq döyüş növü üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək bildirib ki, bu yarışı keçirməkdə məqsədimiz yeniyetmə və gəncləri zərərli vərdişlərdən kənarlaşdırmaq və onları idmana cəlb etməkdən ibarətdir.

Naxçıvan Şərq Döyüş Sənəti Federasiyası ilə şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi yarışda 12 çəki dərəcəsində 60-a yaxın oğlan və qız idmançı mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən döyüşdə qızlar arasında 27 kiloqram çəki dərəcəsində Röya Abdullayeva, oğlanlar arasında isə Ramil Heydərov, Hüseyn Zamanlı, Oğuz Məmmədli, Sahil Heydərov, Fərid Məhərrəmov, Kamal Həsənov, Nizami Hüseynov, Tağı Məmmədov, Seymur Mürsəlov, Xızır İsmayılov, Ayxan Həsənov müvafiq olaraq 30, 34, 38, 42, 46, 52, 58, 61, 66, 70 və 77 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Elan

12 sentyabr 2017-ci il tarixdə saat 10[00]-da Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin təşkilatçılığı ilə birgə səhiyyə işçiləri üçün əmək yarmarkası keçiriləcəkdir. İşaxtaran ali və orta tibb təhsilli məzunların iştirakı məqsədəuyğundur.

*Ünvan: Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 120.*
*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin inzibati binası*

### İtmişdir

Həsənzadə Məmməd Zahid oğlunun adına olan zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov İlham Xudam oğlunun adına olan 0200660272 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərifov Əhməd Hüseynəli oğlunun adına olan zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 715